**TƏSDİQ EDİRƏM**

**Azərbaycan Respublikasının Prezidenti**
**yanında Ali Attestasiya Komissiyasının sədri**

**__________________prof. Famil Mustafayev**

**“_____”________________2019-cu il**

**5503.02 - Vətən tarixi ixtisası üzrə fəlsəfə doktoru imtahanının**

**P R O Q R A M I**

## 1. Giriş. Azərbaycanda ibtidai icma quruluşu

Azərbaycan tarixinin predmeti və əsas problemləri. Maddi abidələrin öyrənilməsi. Azərbaycan tarixi üzrə yazılı qaynaqlar. Azərbaycan tarixinin tarixşünaslığı və mənbələri. Azərbaycan ərazisində ibtidai-icma quruluşunun təşəkkülü. İnsan cəmiyyətinin ən qədim inkişaf mərhələləri. Mezolit və bu dövrdə baş verən dəyişikliklər. Neolit inqilabı. Əkinçilik və maldarlığın mənimsənilməsi. Eneolit dövrü. Tunc dövründə əhalinin əsas məşğuliyyəti. Etnosların təşəkkülü. Dəmirin mənimsənilməsi. Əmlak bərabərsizliyinin güclənməsi. Dövlətin meydana gəlməsi.

## 2. Azərbaycan ərazisində ilkin dövlət qurumları. Manna dövləti

Mixi yazıları Azərbaycanda yaşayan tayfalar haqqında. Zikkertu tayfa ittifaqının Azərbaycan vilayətlərinin həyatında rolu. Azərbaycan ərazisində tayfa ittifaqları. Manna çarlığının meydana gəlməsi. Manna çarlığının Mesopotomiya vilayətləri ilə mədəni-iqtisadi və siyasi münasibətləri. Mannada dini dünya görüşləri. Mannanın dövlət quruluşu. Manna çarlığının güclənməsi və ərazisinin genişlənməsi. Mannanın daxili və xarici siyasəti. Kimmerlər haqqında qədim məlumatlar. Kimmerlərin yaşadıqları ərazilər. Kimmer, İskit yürüşlərinə dair arxeoloji tapıntılar. Kimmerlərin Cənubi Qafqaz torpaqlarına axını. İskitlərin Mannalılar ilə münasibəti.

## 3. Azərbaycan quldar imperiyaların hakimiyyəti dövründə

Midiya çarlığının yaranması. Midiyanın daxili siyasi vəziyyəti. Azərbaycan ərazisində İskit çarlığı. İskitlərin Ön Asiyada hegemonluğu. Skif çarlığı haqqında qədim Şərq mənbələri. Cənubi Azərbaycanın Midiyalılar tərəfindən işğalı. Manna çarlığının süqutu. Midiyanın işğalçılıq müharibələri. Azərbaycan əhalisinin mədəniyyəti və dini görüşləri. Cənubi Azərbaycanda Avesta təlimlərinin yayılması. Midiya çarlığında daxili ziddiyyətlərin kəskinləşməsi və xarici siyasi vəziyyət. Vergi və mükəlləfiyyətlər.Kirin ölümündən sonra hakimiyyət uğrunda mübarizə. Qaumatanın çevrilişi. Satraplıqların mərkəzi hakimiyyətə

qarşı mübarizəsi. Şimali Azərbaycan vilayətlərinin təsərrüfat həyatı.Cənubi Azərbaycanın ərazisi ayrı-ayrı satraplıqların tərkibində. Atropatın Əhəmənilər tərəfindən Makedoniyalı İsgəndərə qarşı vuruşması. Əhəmənilər imperiyasının dağılması.

### 4. Atropatena və Albaniya dövlətləri

Atropatena adının mənbəşünaslığı. Atropatenanın ərazisi. Atropatın Makedoniyalı İsgəndər ilə münasibətləri. Atropatenanın siyasi quruluşu. Atropatenanın iqtisadiyyatı və mədəniyyəti. Atropatenanın etnik mənzərəsi. Atropatenanın yadelli işğalçılara qarşı mübarizəsi. Dini dünya görüşləri. Atropatenanın Sasani dövlətinin tərkibinə qatılması. Ərəb mənbələri Atropatena haqqında. Cənubi Azərbaycanın etnik tərkibi və dilləri haqqında. Atropatenanın sosial-iqtisadi və siyasi vəziyyəti. Vergi və mükəlləfiyyətlər.

Albaniya dövlətinin yaranması. Qədim Albaniyanın ərazisi və əhalisi. Alban tayfaları. Albanların mənşəyi. Alban əhalisinin etnik tərkibi. Arxeoloji tədqiqatlar. Albaniyanın ictimai-siyasi və təsərrüfat fəaliyyətinə dair antik müəlliflərin qeydləri. Şimali Qafqazda yaşayan köçəri tayfaların Azərbaycan ərazisinə hücumları. Amid və Dizrav döyüşləri. Sabir tayfaları.  Xəzərlər. Azərbaycan əhalisinin etnik və dil tərkibi.

Albaniyada feodal münasibətlərinin yaranması. Vergi və mükəlləfiyyətlər. Feodal iyerarxiyası Albaniya əhalisinin sinfi və sosial tərkibi. Qul əməyindən istifadə. Albaniyada xristianlığın yayılması. Torpaq sahibliyi və torpaqdan istifadə. Dini qayda qanunlar. Albanların təsərrüfat həyatı. Albaniyanın vilayətləri. Aranilər və Mehranilər sülalələri. Sasani əleyhinə baş verən xalq azadlıq hərəkatları.

### 5. Azərbaycan xalqının yaranması

Azərbaycan xalqının formalaşması. Məskunlaşdığı ərazilər. Azərbaycan xalqının dil və etnik mənşəyinə dair e.ə ııı-ı –b.e ı minilliklərini əhatə edən yazılı qaynaqlar. Azərbaycan ərazisində ilkin orta əsr türkdilli etnosların yaşayış məskənləri. Azərbaycan ərazisində türk tayfa ittifaqları. Antik qaynaqlarda Azərbaycanın yer-yurd adları. Azərbaycan xalqının formalaşması haqqında ərəb və fars  dilli qaynaqlar. Azərbaycan tarixşünaslığında Azərbaycan xalqının etnik mənşəyi məsələsi. Azərbaycanda yaşamış qədim türk etnoslarının tarixi. Azərbaycan ərazisində türk etnoslarının dilinə məxsus toponimlər. Azərbaycan ərazisində türk dilli etnosların özlərini vahid bir etnos kimi dərk etməsi. Xristianlığın Azərbaycan türklərinin etnik birliyinə təsiri.

### 6. III-VII əsrlərin I yarısında Azərbaycan mədəniyyəti

Maddi mədəniyyət abidələrinin arxeoloji cəhətdən öyrənilməsi. Yazılı abidələrin öyrənilməsi. Albanların yazı mədəniyyəti. Alban ədəbiyyatının təşəkkülü. Kahinlik məktəbi. İbtidai təhsil. Azərbaycanda təqvim.  Dünyəvi və dini  ədəbiyyatlar.  Azərbaycan incəsənətinin xüsusiyyətləri. Zərgərlik sənəti. Bədii şüşə sənəti. Bədii oyma sənəti. Memarlıq və şəhərsalma.

Maniçilik və Məzdəklik hərəkatı. Azərbaycanda dini siyasət.  Zərdüştlük təlimi və mərasimləri. Avesta. Zərdüştlüyün dövlət dini kimi təşəkkülü.  Dini məbədlər. Albaniyada xristianlığın yayılması və erkən xristian icmalarının yaranması. Xristianlığın Albaniyanın ictim-siyasi və sosial həyatında rolu. Alban katalikosluğu. Azərbaycanın Ərəblər tərəfindən işğalından sonra alban kilsəsinin vəziyyəti.

### 7. Azərbaycan Ərəb xilafətinin tərkibində

Ərəb işğalının başlanması. Albanların Ərəb xilafətinə qarşı mübarizəsi. Cavanşirin Albaniyada hakimiyyət başına gəlməsi. Birinci və ikinci Bələncər döyüşləri. Alban-Bizans,

Alban-Xəzər münasibətləri. Azərbaycan torpaqları Xilafətin tərkibinə qatılması. Ərəblərin idarəetmə və köçürmə siyasəti. Azərbaycanın iqtisadi həyatında əkinçilik və maldarlıq. Azərbaycanın siyasi və iqtisadi həyatı. Xilafətin torpaq və vergi siyasəti. Əməvilərin və Abbasilərin hakimiyyəti dövründə əhalinin vəziyyəti.

Azərbaycanda Xilafətə qarşı üsyanlar. Xürrəmilər hərakatı. Babəkin başçılığı altında xalq azadlıq müharibəsi. Ərəblərə qarşı mübarizənin hərəkətverici qüvvələri. Afşinin Xürrəmilərlə döyüşən bütün qoşunların baş komandan təyin edilməsi. Afşinin Bəzz qalasına hücumu. Babəkin məğlubiyyəti.

### 8. Azərbaycan mədəniyyəti (VII əsrin ikinci yarısı-X əsrlər)

Maddi mədəniyyətin aşkar edilməsində arxeoloji qazıntıların rolu. Sənətkarlıq. Memarlıq abidələri. Yazılı maddi mədəniyyət qalıqları. Xilafət ağalığının Azərbaycanın mədəni həyatına təsiri. Ərəb-müsəlman mədəniyyətinin yaranması. Dini və dünyəvi xarakterli əsərlərin ərəb dilində yazılması. Mədrəsələrin yaradılması. Elmin inkişafı. Quran. Azərbaycanda islam ideologiyasının yayılması. Sufizmin formalaşması və müsəlman ölkələrində yayılması. Azərbaycanda elmi-fəlsəfi fikrin təbiət elmləri ilə vəhdəti. Azərbaycan şifahi və yazılı ədəbiyyat. Azərbaycanda ərəb dilinin rəsmi və elmi ədəbi dilə çevrilməsi. İslam mədəniyyətinin Azərbaycan memarlığına təsiri. Azərbaycanda xristian memarlığı abidələri.

### 9. Azərbaycan ərazisində müstəqil feodal dövlətlərinin yaranması

Xilafətdə mərkəzdənqaçma meyillərinin güclənməsi. Azərbaycan ərazisində Sacilər dövlətinin yaradılması. Sacilər dövlətinin güclənməsi və müstəqil siyasəti. Şirvanşah Məzyədilər dövlətinin yaranması. Şirvanşahlar dövlətinin Səlcuq imperiyası ilə münasibətləri. Şirvanşah-Gürcü münasibətləri. Monqolların Şirvana hücumları. Dərbənd Haşimi əmirliyi. Dərbənd əmirliyində hakimiyyət uğrunda mübarizə və Səlcuqlar tərəfindən işğal edilməsi. Şəki məlikliyi. Salarilər dövlətinin meydana gəlməsi. Salarilər dövlətinin daxili və xarici siyasəti. Salarilər dövlətinin süqutu. Rəvvadilər dövlətinin meydana gəlməsi. Rəvvadi hökmdarlarının Səlcuq təəbəliyini qəbul etmələri. Rəvvadilər dövlətinin süqutu. Şəddadilər dövlətinin yaranması. Şəddadilər dövlətinin Rəvvadilər və Şirvanşahlar dövlətləri ilə münasibətləri.

### 10. Azərbaycan inkşaf etmiş feodalizm dövründə (XI-XII əsrlər)

Səlcuq imperiyasının meydana çıxması. Azərbaycan ərazilərinin səlcuqlar tərəfindən ələ keçirilməsi. Səlcuqilər arasında sülalə daxili çəkişmələr və Səlcuq dövlətinin tənəzzülü. Atabəy Eldənizin Səlcuq dövlətini idarə edilməsində rolu. Azərbaycan Atabəylər dövlətinin yaradılması. Atabəylər dövlətinin Gürcüstan ilə münasibətləri. Azərbaycan Atabəylər dövlətinin siyasi quruluşu və idarə sistemi. Azərbaycan Atabəylərin dövlət aparatı. Atabəylər dövlətinin əyalət və vilayətləri. Azərbaycan Atabəylər dövlətinin möhkəmlənməsi. Azərbaycan Atabəylər dövləti Özbəyin hakimiyyəti dövründə. Azərbaycan Atabəylər dövlətinin süqutu.

XI-XII əsrlərdə Azərbaycanda əkinçiliyin inkşaf etməsi. XI-XII əsrlərdə Azərbaycanda sənətkarlığın inkşafı. Azərbaycan şəhərləri XI-XII əsrlərdə. Azərbaycan ərazisində yaranmış ilkin dövlət qrumları və dövlətlər. Azərbaycan xalqının etnogenezi ilə bağlı tədqiqatçıların araşdırmaları. Azərbaycan türk dilinin öyrənilməsində onomastik və folklor materiallarının rolu. Azərbaycanın etnik xəritəsi. Azərbaycan ərazisində cərəyan edən dil, ərazi, mədəniyyət və iqtsadi əlaqələrin vəhdətinin xalqın təşəkkülü prosesində rolu

## 11. Azərbaycan mədəniyyəti (XI-XV əsrlər)

XI-XIV əsrlərə aid Azərbaycanın maddi mədəniyyətinin öyrənilməsi. Yazılı materialların öyrənilməsi. Elmi ədəbiyyatın inkişafı. Memarlıq məktəbləri. Dini və xatirə memarlığı. Dekorativ-tətbiqi sənət növləri. Epiqrafik abidələr. Ərəb qrafikalı yazılar. Elmin inkişafı. Türkdilli folklorun yayılması. Azərbaycan poeziyası. Azərbaycan fəlsəfi fikir tarixi. Maddi mədəniyyət.

## 12. Azərbaycan Monqol hakimiyyəti dövründə

Mərkəzi Asiyada Monqol dövlətinin yaranması. Monqolların Azərbaycana ilk yürüşü. Atabəylər dövlətinin süqutu. Xarəzmşah Cəlalədinin Azərbaycana hücumu. Azərbaycanın Monqollar tərəfindən işğal edilməsi. Hülakülər dövlətinin yaranması. Monqolların dini siyasəti. Qazan xanın islahatları. Hülakülər dövlətinin süqutu. Azərbaycanda Çobanilərin və Cəlarilərin hakimiyyəti. Teymur və Toxtamışın Azərbaycana hücumları. Monqol işğallarının Azərbaycanın şəhər həyatına və iqtisadiyyatına təsiri. Azərbaycanda torpaq mülkiyyət formaları. Azərbaycanda vergi və mükəlləfiyyətlər.

## 13. XV əsr Azərbaycan dövlətləri

XIV əsrin sonu-XV əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi və sosial-iqtisadi vəziyyət. Şirvanşahlar dövləti. Teymur və Toxtamış arasında Azərbaycan uğrunda gedən mübarizə. Qaraqoyunlu tayfa ittifaqı. Teymurilərin ağalığına son qoyulması. Qaraqoyunlu dövləti. Azərbaycan Qaraqoyunlu dövlətinin süqutu. Ağqoyunlu tayfa ittifaqı. Azərbaycanda Ağqoyunlu dövlətinin yaranması. Ağqoyunlularda ictimai siyasi vəziyyət. Səfəvi-Ağqoyunlu münasibətləri. Torpaq mülkiyyət formaları. Azərbaycanda feodal münasibətləri. Uzun Həsənin həyata keçirdiyi islahatlar.

## 14. Azərbaycan Səfəvilər dövləti

XV əsrin sonu-XVI əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyət. Ağqoyunlu dövlətinin zəifləməsi və süqutu. Səfəvilər dövlətinin yaranması. Ağqoyunlular dövlətinin süqutu. Şah İsmayılın dini siyasəti. Mərkəzi hakmiyyətin ictimai dayaqlarının gücləndirilməsi üçün görülən tədbirlər. Səfəvilər dövlətinin birləşdirilmə siyasəti. Torpaq mülkiyyət formaları. Hakim təbəqələr. Vergi və mükəlləfiyyətlər. XVI əsr Azərbaycanda sənətkarlıq və ticarətin inkişafı.

Osmanlı işğalı altında olan Azərbaycan ərazilərində iqtisadi vəziyyət. XVII əsrdə Azərbaycanda həyata keçirilən inzibati hərbi tədbirlər. Osmanlı işğalına qarşı Azərbaycan xalqının azadlıq mübarizəsi. I Şah Abbasın hakimiyyət başına gəlməsi və həyata keçirdiyi hərbi islahatlar. Paytaxtın Qəzvindən İsfahana köçürülməsi. Azərbaycanda Daxili və xarici ticarət dövriyyəsi. Azərbaycan iqtisadiyyatının tənəzzülü. Xalq hərəkatı. Osmanlı-Səfəvi müharibələri və Amasiya sülh müqaviləsi. Osmanlılar ilə Səfəvilər arasında 1590-cı il İstanbul sülhü. Səfəvi dövlətinin Avropa dövlətləri ilə diplomatik, hərbi və siyasi münasibətləri.

## 15. Azərbaycan mədəniyyəti (XVI-XVII əsrlər)

Azərbaycanda maarif və məktəblərin vəziyyəti. Mədrəsələrin fəaliyyəti. Kitabxanaların vəziyyəti. Azərbaycan şairlərinin bədii yaradıcılığı. Azərbaycan memarlığı. Azərbaycan xalçaçılıq sənətinin inkişfı. Daş oymalar-məzarüstü daşlar. Aərbaycan memarlığının əsas cəhətləri. Dini abidələr. Azərbaycanda fəlsəfi fikirin inkişafı. Şah İsmayılın dini siyasəti. Hürufilik.

## 16. Azərbaycan XVIII əsrin birinci yarısında

Mərkəzi hakimiyyətin zəifləməsi. Üsyanlar. XVIII əsrin əvvəllərində Səfəvi dövlətində siyasi vəziyyətin gərginləşməsi. Pyotrun Xəzəryanı vilayətlərə dair planı. Azərbaycanın Xəzəryanı vilayətlərinin Rusiya tərəfindən işğal edilməsi. İstanbul müqaviləsi. Rusiyanın Azərbaycanda həyata keçirdiyi iqtisadi siyasətinin mahiyyəti. 1732-ci il Rəşt müqaviləsi. Pyotrun ermənilərin Xəzəryanı vilayətlərdə yerləşdirilməsinə dair göstərişi. Səfəvi-Osmanlı müharibələri. Nadir bəylə Osmanlı komandanlığı arasında Bağdad müqaviləsinin bağlanması. Səfəvi dövləti ilə Rusiya arasında Gəncə müqaviləsinin bağlanması. Osmanlı ordusunun Azərbaycan ərazilərindən çıxarılması. Nadirin şah elan edilməsi. Nadir şahın hakimiyyəti dövründə Azərbaycanda siyasi vəziyyət. Nadir şahın öldürülməsi. XVIII əsrin birinci yarısında Azərbaycanda əkinçilik və maldarlığın vəziyəti. Vergi və mükəlləfiyyətlər.

## 17. Azərbaycan xanlıqlar dövründə

XVIII əsrin II yarısında Azərbaycanda müstəqil və yarımmüstəqil xanlıqların yaranması. Xanlıqların Gürcü çarları ilə münasibətləri. Azərbaycan torpaqlarının birləşdirilməsinə səy göstərən xanlıqlar. Azərabycanın cənub xanlıqlarında gedən ictimai-siyasi proseslər. Xanlıqlar arası mübarizə. Georgiyevski müqaviləsi. Rusiyanın Qarabağ xanlığı ilə münasibətləri. Qarabağ məlikllikləri. Ağa Məhəmməd şah Qacarın Azərbaycan torpaqlarını birləşdirmə siyasəti. Rus qoşunlarının Cənub Qafqaza hücumu. II Yekaterinanın ölmünün Cənubi Qafqazda gedən proseslərə təsiri. Ağa Məhəmməd şah Qacara qarşı sui-qəsdin həyata keçirilməsi. XVIII əsrin II yarsında Azərbaycanın ictimai vəziyyəti. Xanlıqlar dövründə torpaq mülkiyyət formaları. Azərbaycan xanlıqlarında vergi mükəlləfiyyətlər. Feodal ara müharibələri və xarici müdaxilələr.

## 18. Azərbaycan mədəniyyəti (XVIII əsr)

Azərbaycanda memarlıq abidələri. Sənətkarlıq. Azərbaycanda məktəb və Mədrəsələrin fəaliyyəti. XVIII əsrdə Azərbaycan elminin vəziyyəti. Saray ədəbiyyatı. Xalq dastanları. Azərbaycan ədəbiyyatının milli mədədniyyətin inkişafına təsiri. Memarlıq abidələri. Xalq yaradıcılığı. Dini abidələr.

## 19. Şimali Azərbaycan Azərbaycan XIX əsrin I yarısında

Kartli-Kaxetiya çarlığının Rusiyaya birləşdirilməsi. Rus qoşunlarının Car-Balakənə hücumu. Gəncənin Rusiya tərəfindən işğal edilməsi. I Rus-İran müharibəsi. Kürəkçay sülh müqaviləsi. Rus-Türkiyə müharibəsi. Buxarest müqaviləsi. Gülüstan sülh müqaviləsi. II Rus-İran müharibəsi. Tükmənçay sülh müqaviləsi. Çarizmin Cənubi Qafqazda iqtisadi siyasətinin mahiyyəti. Xan və bəy mülklərinin çar xəzinəsinin ixtiyarına keçirilməsi. Komendat sisteminin tədbiqi. 1840-cı ilin inzibati məhkəmə islahatı. Sənətkarlıq və ticarət. Şimali Azərbaycanda əyalət və distansiyaların yaradılması. Müstəmləkə və feodal əsarətinə qarşı çıxışlar. İnzibati idarə və məhkəmə sistemində islahatlar. Cənubi Qafqazın inzibati ərazi quruluşunda dəyişikliklərə dair 1846-cı il 14 dekabr tarixli çar fərmanı. Azərbaycan bəylərinin torpaq hüquqları və onların kəndlərlə qarşılıqlı münasibəti.

## 20. Azərbaycan mədəniyyəti (XIX əsrin birinci yarısı)

Çar hökumətinin Azərrbaycanda təhsil siyasəti. Dini və dünyəvi təhsil. Cənubi Qafqaz məktəbləri haqqında 1829-cu il "Əsasnaməsi". Azərbaycanda ilk qəza məktəbləri. Müsəlman məktəbləri. Azərbaycanda elm və Ictimai fikir. Azərbaycan xanlıqlarının tarixinin öyrənilməsi. Dünyəvi təhsilin inkişafı. Ədəbiyyat. İncəsənət, teatr və memarlıq. Teatrın inkişafı. Xalçaçılıq. Şəhərsalma və memarlıq.

## 21. Azərbaycan XIX əsrin ikinci yarısında

Kapitalist münasibətlərinin meydana gəlməsi. Sənaye. Azərbaycan neft sənayesi. Iltizam sisteminin ləğv edilməsi. Kənd təsərrüfatı. 1870-ci il kəndli islahatı. Kəndli çıxışları. Çarizmin xristianlaşma siyasəti. “Cənubi Qafqaz diyarının mərzləşdirilməsi” haqqında əsasnamə. Məhkəmə və şəhər islahatları. Çarizmin Cənubi Qafqazda müstəmləkəçilik siyasəti. Çarizmin Cənubi Qafqazda idarəçilik siyasəti. Yelizavetpol quberniyasının yaranmsı. Şimali Azərbaycan ərazisinin Cənubi Qafqazın müxtəlif Quberniyaları arasında bölüşdürülməsi. Seçki sistemini həyata keçirən “Əsasnamə”. İslahatdan sonrakı dövrdə kapitalist münasibətlərinin inkişafı. Milli burjuaziyanın sənaye sahələrinin inkişafında rolu. Sənayenin başqa sahələrinin inkişafı. Nəqliyyat və rabitə. Ticarət əlaqələrinin genişləndirilməsi. Azərbaycanda torpaq sahibliyi və torpaqdan istifadə qaydaları. “Sudan istifadə haqqında Əsasnamə”. Çarizmin xristianların Azərbaycana köçürmə siyasəti. Azərbaycanda kəndlilərin vəziyyəti. Kəndli mübarizəsinin formaları. Burjuaziyanın təşəkkülü prosesi. Azərbaycanda fəhlə sinfinin formalaşması prosesi. Azərbaycan millətinin formalaşması. Əmtəə-pul münasibətlərinin inkişafı.

## 22. Azərbaycan mədəniyyəti (XIX əsrin ikinci yarısı)

Ümumtəhsil və peşə məktəbləri. Azərbaycan dilinin məcburi fənlər sırasından kənar edilməsi. 26 mart 1870-ci il tarixli “Rusiyada məskun olan yadellilərin təhsilinə dair tədbirlər haqqında” qaydalar. Yeni tipli məktəblər. Kitabxanaların təşkili. Milli mətbuat. Elmin inkişafı. Azərbaycan ədəbiyyatı.Milli mədəniyyətin özünəməxsus xüsusiyyəti.

## 23. Cənubi Azərbaycan 1828-1900-cü illərdə

“Cənubi Azərbaycan” siyasi məfhumunun siyasi araneya gəlməsi. “Cənubi Azərbaycan” siyasi məfhumu sovet tarxşünaslığında. Cənubi Azərbaycan əyalətinin sərhədləri, ərazi-inzibati bölgüsü. Cənubi Azərbaycanda Azərbaycan-türk əhalisi. Cənubi Azərbaycan xanlıqlarının daxili müstəqillik hüquqları. Qacar hökmdarlarının Cənubi Azərbaycan siyasəti. Cənubi Azərbaycanda sosial-iqtisadi vəziyyət. Vergi və mükəlləfiyyətlər. Cənubi Azərbaycanda baş verən üsyanlar. XIX əsrin sonlarında Cənubi Azərbaycanda xarici müstəmləkəçilərə və hakim dairələrə qarşı kütləvi çıxış və tətillər.

## 24. Azərbaycan 1901-1914-cü illərdə

Azərbaycan qəzalarında sənaye sahələrinin inkişafı. Kapitalın təmərküzləşməsi və mərkəzləşməsi prosesi. Dövlət və sahibkar kəndliləri. Ticarət və sənaye kapitalı. Azərbaycan neft sənayesinin inkişaf sürəti. İqtisadi böhran. Azərbaycanda sənətkarlıq mərkəzləri. Kənd təsərrüfatı. Dövlət və sahibkar kəndliləri. Azərbaycanda Borc-Bank sistemi. I Dünya müharibəsi ərəfəsində neft sənayesinin təmərküzləşməsinin yeni mərhələsi. Neft şirkətləri arasında rəqabət. Azərbaycan ticarət kapitalının təmərküzləşməsi prosesi. Azərbaycan şəhərlərinin inkişafı və böyüməsi. Azərbaycan əhalisinin etnik tərkibi. Əhalinin təhsil səviyyəsi. Azərbaycanın ictimai-siyasi vəziyyəti. Qafqazda canişinliyin bərpa edilməsi. Çar hökumətinin inqilabi və milli azadlıq hərakatına qarşı mübarizəsi. Cəmiyyətlər və ittifaqlar haqqında müvəqqəti qaydalar. Fəhlə və kəndli çıxışları. Azərbaycanda formalaşmağa başlayan ilk siyasi təşkilatlar.

Bakıda ictimai-siyasi vəziyyətin kəskinləşməsi. Kəndlilərin çarizmin köçürmə, vergi və mükəlləfiyyətə dair siyasətinə qarşı çıxışları. Millətlərarası toqquşmaların təşkil edilməsi. Çar hökumətinin ucqarlarda yaşayan xalqlara qarşı milli zülmü. 1905-ci il 17 oktyabr Manifesti. Azərbaycanda muxtariyyət və Rusiyanın federativ quruluşu haqqında ideyalar. “Qeyrət” və “Difai” partiyası. Rusiya Dövlət Dumasına seçkilər haqqında qanun.

## 25. Cənubi Azərbaycan XX əsrin əvvəllərində

XX əsrin əvvəllərində Cənubi Azərbaycanda sosial-siyasi ziddiyyətlərin kəskinləşməsi. Milli burjuaziya. Ölkədə yaranmış gizli cəmiyyət və siyasi təşkilatlar. Cənubi Azərbaycanda demokratik fikirin yayılması, milli və siyasi şüurun inkişafı. İran inqilabının başlanması. Təbriz və digər şəhərlərində inqilabi hərakat. Konstitusiya haqqında Şahın fərmanı. Azərbaycan əyalət əncümənin yaradılması və fəaliyyəti. Irtica qüvvələrinin əksinqilabi hücumları. Inqilabı mübarizənin mərkəzinin Tehrandan Təbrizə keçməsi. Səttar xan və Bağır xanın siyasi fəaliyyəti. Təbriz üsyançılarının irtica üzərində qələbəsi. Cənubi Azərbaycanda həyata keçirilən demokratik tədbirlər. Siyasi vəziyyətin gərginləməsi. Irticanın Təbriz üzərinə yeni hücümları. Cənubi Azərbaycan fədailərinin tərksilah edilməsi.

## 26. Azərbaycan birinci dünya müharibəsi dövründə

Birinci Dünya müharibəsində döyüşən dövlətlərin maraqları. Qafqaz cəbhəsində hərbi əməliyyatlar. Rus qoşunlarının Cənubi Azərbaycana daxil olması. Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrində müharibəyə münasibət. Birinci Dünya müharibəsində Azərbaycan hərbiçilərinin iştirakı. Müharibənin Azərbaycan sənayesinə təsiri. Mərkəzi və Bakı hərbi- sənaye komitəsinin təsis olunması. Azərbaycan kənd təsərrüfatının müharibə illərində vəziyyəti. Əmək və kapital arasında ziddiyyətlərin kəskinləşməsi. Sənaye fəhlələrinin həyat və iş şəraiti. Tətil hərəkatının güclənməsi. Müharibə dövründə iqtisadi böhranın dərinləşməsinin əhalinin sosial-iqtisadi vəziyyətinə təsiri. Vergi və mükəlləfiyyətlər. Qaçaqçılıq hərəkatı.

## 27. Cənubi Azərbaycan birinci dünya müharibəsi dövründə

Birinci dünya müharibəsi ərəfəsində və dövründə Cənubi Azərbaycan əhalisinin əsas məşğuliyyəti. Torpaq mülkiyyəti formaları. Rəiyyət və xırdamalik kəndlilər. Feodalların siyasi-inzibati hüquqları. Vergi və mükəlləfiyyətlər. İnzibati quruluş. Cənubi Azərbaycanda vəliəhdin imtiyaz və fəaliyyəti. Birinci Dünya müharibəsinin Cənubi Azərbaycan əhalisinin həyat şəraiti və təsərrüfatına təsiri. Cənubi Azərbaycan sənayesinə xarici kapital qoyuluşu. Birinci Dünya müharibəsinin Cənubi Azərbaycanda sosial-siyasi ziddiyyətlərin kəskinləşməsinə təsiri. Cənubi Azərbaycan ərazisinin hərbi əməliyyat meydanına çevrilməsi.

## 28. Azərbaycan mədəniyyəti (XX əsrin əvvəlləri)

Rus hökumətinin Azərbaycanda təhsil siyasəti. Yeni üsullu məktəblərin yaradılması. Ruhani məktəbləri. Məktəb şəbəkəsinin genişlənməsi. Kilsə-məhəllə məktəbləri. Ali ibtidai məktəblərin yaranması. Rus-tatar məktəbləri. H.Z.Tağıyevin Azərbaycanda təhsilin inkişafında rolu. Milli müəllim kadrlarının çatışmazlığı. Qadın gimnaziyaları. Bakı Kommersiya məktəbləri. Bakı orta texniki peşə məktəbləri. Sənət məktəbləri. XX əsrin əvvəllərində Azərbaycanda əhaliyə tibbi xidmətin səviyyəsi. Milli mətbuatının vəziyyəti. Azərbaycanda sosial-demokrat istiqamətli mətbuat orqanlarının meydana gəlməsi. Azərbaycan ədəbiyyatı. Milli şüurun oyanması. Ədəbi dil problemləri. Azərbaycanda elmi fikirin inkişafı. Azərbaycan memarlıq sənətinin inkişafı. Milli teatr sənətinin inkişafı.

## 29. Fevral inqilabından sonra Şimali Azərbaycanda siyasi vəziyyət

Fevral inqilabının Azərbaycanda siyasi proseslərə təsiri. Xüsusi Zaqafqaziya komitəsinin yaradılması. Siyasi partiyaların yeni hakimiyyətin təşkilinə münasibəti. Müxtəlif siyasi cərəyan və partiyaların mübarizəsi. Türkçülük ideyaları. Müsavat partiyasının siyasi

mübarizədə iştirakı. Hümmət partiyası. Milli mədəni muxtariyyət məsələsi. Bakı Sovetinin İcraiyyə Komitəsi. Rusiyada oktyabr çevrilişinin Azərbaycanda siyasi proseslərə təsiri. “Rusiya xalqlarının hüquq bəyannaməsi”. Hakimiyyət uğrunda siyasi mübarizənin kəskinləşməsi. Zaqafqaziya Seyminin yaradılması. Azərbaycanda milli azadlıq hərəkatının güclənməsi. Mart soyqrımı. Bakı kommunasının süqutu.

### 30. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və daxili siyasəti

Müvəqqəti Milli Şuranın yaranması. Azərbaycan İstiqlal Bəyannaməsinin qəbul edilməsi. Müstəqil Azərbaycan dövlətinin yaradılması. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-ci il iyun siyasi böhranı. Milli Şuranın buraxılması. Azərbaycan hərbi korpusunun yaradılması. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağının qəbul edilməsi. Bakıda siyasi vəziyyətin gərginləşməsi. Bakının azad edilməsi. Azərbaycan Hökumətinin Respublikanın hüdudlarında hakimiyyətinin bərqərar edilməsi. Azəbaycan Türkiyə münasibətləri. General Tomsonla Azərbaycan hökuməti arasında münasibətlər.

Azərbaycanda Milli Dövlətçiliyin bərqərar olması**.** Azərbaycan parlamentinin yaradılması. Aqrar məsələ. Azərbaycan Hökumətinin dil siyasəti. Azərbaycanda siyasi vəziyyətin gərginləşməsi. Parlament daxili partiya fraksiyalarının fəaliyəti. Azərbayacanda sosial-iqtisadi vəziyyət. Sosial problemlər. Azərbaycanda ordu quruculuğu. Müstəqilliyin qorunması və möhkəmləndirilməsi üçün tədbirlər. Araz-Türk Respublikası. Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi siyasəti. Mülkiyyətin formaları. Milli bankın yaradılması. Milli valyuta. Ticarət və sənaye nazirinin həyata keçirdiyi tədbirlər.

Xalq Maarif Nazirliyinin yaradılması. Maarifin milliləşdirilməsi və məktəb islahatı məsələsi. Bakı Dövlət Universiteti. Mətbuat. Teatr. Kitabxanalar. Müsəlman partiya və qruplaşmaları arasında ziddiyyətlərin artması. Ölkə daxilində Azərbaycan kommunistlərinin təxribatçı fəaliyyəti. XI Qırmızı Ordunun Bakı şəhərinə daxil olması və Azərbaycan Xalq Cümhuriyyətinin süqutu.

### 31. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti

Azərbaycanın xarici siyasətinin əsas dövrləri. Azərbaycan –Türkiyə münasibətləri. Batum müqaviləsi. Mudros barışığı. Azərbaycan nefti uğrunda mübarizənin kəskinləşməsi. Böyük Britaniyanın Azərbaycanda maraqları. Azərbaycan-Gürcüstan münasibətləri. Azərbaycan-Ermənistan münasibətləri. Qarabağda baş verən hadisələr. Müttəfiqlərin Naxçıvan siyasəti. Azərbaycan nümayəndə heyətinin Paris sülh konfransında iştirakı. Azərbaycan-İran münasibətləri. Azərbaycanın müstəqilliyinin de-fakto səviyyəsində tanınması.

### 32. 1917-1920-ci illərdə Cənubi Azərbaycanda milli-azadlıq hərakatı

Fevral inqilabının Cənubi Azərbaycanda gedən ictimai-siyasi proseslərə təsiri.Cənubi Azərbaycanda inqilabi mübarizənin güclənməsi. Azərbaycan Demokrat Partiyasının yaranması və fəaliyyət Şeyx Məhəmməd Xiyabaninin siyasi fəaliyyəti. ADP-nin daxilində sol və sağ meylli qruplar arasıda fikir ayrılığı. Digər siyasi partiyaların fəaliyyəti.

Rus qoşunlarının Cənubi Azərbaycandan çıxarılması. Cənubi Azərbaycanda Azərbaycan türklərinə qarşı soyqırımın törədilməsi. Türk ordusunun Cənubi Azərbaycana daxil olması. Milli-azadlıq hərəkatının güclənməsi. Təbriz üsyanı. Cənibi Azərbaycana yeni valinin təyin edilməsi. Üsyanın digər əyalətlərə yayılması. Üsyanın hərəkətverici qüvvələri. İngilislərin üsyana münasibəti. Rusiyanın hərbi müdaxiləsi. Cənubi Azərbaycanda milli hökumətin yaradılması və fəaliyyəti. Milli hökumətin həyata keçirdiyi islahatlar. Milli ordunun yaradlması. Üsyanın yatırılması.

## 33. Azərbaycan SSR XX əsrin 20-30-cu illərində

Azərbaycan Xalq Komissarları Sovetinin təşkili. Azərbaycanda İnqilab Komitəsinin fəaliyyəti. Sovet hökumətinin Azərbaycanda iqtisadi siyasəti. Azərbaycan Kommunist Partiyasının fəaliyyəti. Sovet hökumətinə qarşı üsyanlar. Azərbaycan dövlət idarəetmə orqanlarında erməni, gürcü və rusların yerləşdirilməsi. Sovet hakimiyyətini mökəmləndirmək və milli siyasətin mahiyyəti. Müstəqil sovet Azərbaycanı məsələsi. Azərbaycanın dövlət məmurları ictimai-siyasi xadimlərinin mühacirət həyatı və siyasi fəaliyyəti. “Hərbi kommunizm” siyasətinin ağır nəticələri. Azərbaycanın milli dövlət quruculuğunda mövcud olan problemlər. Azərbaycan SSR-in ilk Konstitusiyasının qəbul edilməsi. Milli siyasətin həyata keçirilməsi.

Zaqafqaziya (Cənubi Qafqaz) Sovet Federativ Sosialist Respublikaları İttifaqının yaradılması. Ermənilərin Dağlıq Qarabağa əsassız iddiaları. Kommunist ideologiyası. Sovet hökumətinin dini siyasəti. Azərbaycanda Ali məktəb. Azərbaycan Dövlət Arxivinin fəaliyyətə başlaması. Sovet ədəbiyyatı. Memarlıqda sovet ideologiyası.Beşillik planda milli Respublikaların iqtisadiyyat və mədəniyyətinin istiqamətləri. Milli mənafelərin arxa plana keçməsi. Kollektivləşdirmədə inzibati-amirlik siyasəti. Azərbaycanda yeni rayonlaşdırmanın həyata keçirilməsi. Azərbaycan ictimai-siyasi hətatında əsaslı dəyişikliklər.

Savadsızlığın ləğv edilməsi. Sosializm ideologiyası ruhunda tərbiyə. Latın əlifbasının krillə əvəz edilməsi. Elmi və milli kadrların hazırlanması. Azərbaycan SSR-də əhalinin sosial strukturunun vəziyyəti. Milli məsələ. Azərbaycan SSR-in yeni konstitusiyasının qəbul olunması.

## 34. Cənubi Azərbaycan XX əsrin 20-30-cu illərində

XX əsrin əvvəllərində Cənubi Azərbaycanda ictimai-siyasi vəziyyət. Sovet-İran müqaviləsi. Cənubi Azərbaycanda gedən proseslərdə Türkiyənin rolu. Cənubi Azərbaycanda milli-demokratik ideyalar və dini ideologiya. Milli demokratik qüvvələrin mübarizəsinin yeni mərhələsi. Siyasi qüvvələrin parlamentdə təmsil olunması. İranda hakimiyyət uğrunda gedən mübarizənin Cənubi Azərbaycana təsiri. Rza xanın siyasi fəaliyyəti. Feodal cəbhəsi ilə mülkədar-burjua cəbhəsi arasında münasibətlər. 20-ci illərin ikinci yarısı-30-cu illərdə Cənubi Azərbaycanda sosial, iqtisadi, siyasi və mədəni vəziyyət. Sənayenin vəziyyəti. Rza şahın diktatura rejiminin Cənubi Azərbaycana təsiri. Rza şahın hakimiyyəti dövründə Cənubi Azərbaycanda etnik, milli-mədəni və inzibati siyasət.

## 35. Azərbaycan SSR II Dünya müharibəsi dövründə

Almaniyanın SSRİ-yə hücumu. Almaniyanın işğalçılıq planında Bakı nefti məsləsi. “Qafqazın idarə olunması” planı. Azərbaycanda təşkil edilən hərbi birləşmələr. Azərbaycanda sənayenin hərbi tələblərə uyğun yenidən qurulması. Bakıya bir sıra müəssisələrinin köçürülməsi. Cəbhənin yüksək keyfiyyətli yanacaqla təmin etmək istiqamətində tədbirlər. Yüksək oktanlı aviasiya yanacağının əldə edilməsi. Azərbaycan alimlərinin bir sıra silah növlərinin istehsal edilməsində rolu. Azərbaycanlı döyüşçülərinin hərbi əməliyyatlarda iştirakı. Azərbaycan döyüşçülərinin qəhrəmanlıqları. Cənubi Qafqaz Respublikalarında hərbi vəziyyətin elan edilməsi. Şimali Qafqazın azad olunmasında Azərbaycan milli diviziyalarının iştirakı. Azərbaycan döyüşçülərinin Ukrayna, Belarusiya, Rumıniya, Bolqarıstan, Yuqoslaviya, Avstriya və Çexoslovakiyanın azad olunmasında fəal iştirakı. Azərbaycan döyüşçülərinin digər hərbi hissələrinin tərkibində fəal iştirakı. Sovet qoşunlarının İrana daxil olması. Sovet qoşunlarının İranda keçirdiyi hərbi əməliyyatlarda Azərbaycan döyüşçülərinin iştirakı.

## 36. Cənubi Azərbaycanda milli-demokratik hərakat (1941-1946-cı illər)

İkinci Dünya müharibəsinin Cənubi Azərbaycanda gedən ictimai-siyasi proseslərə təsiri. İngilis və sovet qoşunlarının İrana daxil olması. Iranda yeni siyasi partiyaların yaranması. Cənubi Azərbaycanın Ümumiran demokratik hərakatının mərkəzinə çevrilməsi. Milli dil, şüur və milli azadlıq ideyası. Milli demokratik hərəkata qarşı mübarizə. Cənubi Azərbaycan ərazisində silahlı fədai dəstələrinin yaranması. Seyid Cəfər Pişəvərinin siyasi fəaliyyəti. Azərbaycan Demokrat Partiyasının yaradılması, onun məqsəd və vəzifələri. ADP-nin hərbi tədbirləri. Təbrizdə hakimiyyətin demokratlar tərəfindən ələ keçirilməsi. Milli Məclisin çağrılması və Milli hökumətin yaradılması.

Demokratik hərakatın milli quruculuq mərhələsi. Milli hökumətin İran dövlətçiliyi çərçivəsində muxtariyyət prinsipi. Cənubi Azərbaycanda inzibati-ərazi orqanlarının yaradılması, sosial-iqtisadi islahatların keçirilməsi, milli mədəniyyətin inkişaf etdirilməsi, dil haqqında qanun qəbul edilməsi.`SSRİ- İran münasibətləri. Şah rejimi ilə Milli hökumət arasında danışıqlar. Hökumət qoşunları ilə fədailər arasında döyüşlər və SSRİ-nin mövqeyi. Cənubi Azərbaycanda milli- azadlıq hərəkatının məğlubiyyətə uğraması.

## 37. Azərbaycan SSR XX əsrin 40-cı illərinin ikinci yarısı-60-cı illərdə

Azərbaycan SSR-də xalq təsərüfatının, eləcə də sənayeninin bərpası və inkişafı üçün həyata keçirilən tədbirlər. Azərbaycanda iqtisadiyyatın yenidən qurulması mərhələsinin başa çatdırılması. 1946-50-ci illərdə Azərbaycan SSRİ xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beş illik planın qəbul edilməsi. “Azneft kəşfiyyat” birliyinin yaradılması. Neft sənayesində zavodların yenidən qurulması. Maşınqayırma sənayesinin yeni sahələrinin yaradılmasına başlanması. Müharibədən sonrakı illərdə bir sıra tikinti təşkilatlarının və ağır sənayenin yeni sahələrinin yaradılması. Yeyinti müəssisələrinin yaradılması. Iqtisadi inkişafın qarşısında duran əsas vəzifələr.

İctimai-siyasi həyatda baş verən dəyişikliklər. Totalitar rejimin sərtləşməsi. Xaricdə fəaliyyət göstərən Azərbaycanlı mühacirlərin fəaliyyəti. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası. Ictimai-siyasi vəziyyətin mülayimləşməsi. Milli azadlıq uğrunda mübarizənin başlanmsı. “Milli Azərbaycan Qərargahı”.

## 38. Azərbaycan SSR XX əsrin 70-80-cı illərində

Respublikanın ictimai siyasi həyatı. Heydər Əliyevin Azərbaycan KP MK birinci katibi seçilməsi. Azərbaycan SSR-nin yeni konustitusiyasının qəbul edilməsi. Azərbaycanda milli kadr potensialının artırılması. Naxçıvan MSSR və Dağlıq Qarabağ Muxtar Vilayətində həyata keçirilən tədbirlər. Azərbaycanın ictimai siyasi həyatında gedən proseslər. Sənaye sahələrinin inkşaf etdirilməsi. Qondarma Dağlıq Qarabağ probleminin Azərbaycan iqtisadiyatına təsiri. Azərbaycan əhalisinin rifahı və məişəti. Sovet imperiyasının ideoloji dayaqlarının zəifləməsi. 1985-ci ilin aprel plenumu və onun əsas müddəaları. Aşkarlıq və demokratiya xəttinin qəbul edilməsi. Heydər Əliyevin SSRİ Nazirlər Sovetinin birinci müavini vəzifəsində fəaliyyəti. “Dağlıq Qarabağ probleminin” yenidən gündəmə gətirilməsi. Xankəndində gedən siyasi proseslər. Sumqayıt hadisəsi. Ermənistandan Azərbaycanlıların deportasiyası. Azərbaycan Demokratik qüvvələrinin fəaliyyəti. Ermənistan hərbi birləşmələrinin Azərbaycan ərazisinə hücumları.

Milli hərəkatın başlanması və siyasi vəziyyətin kəskinləşməsi. Azərbaycanda ictimai-siyasi təşkilatların meydana gəlməsi. Azərbaycanda siyasi vəziyyət. Azərbaycan ərazisində xalq hərakatının kütləvi xarakter alması. Sovet imperiyası tərəfindən Bakı şəhərinə hərbi müdaxilə və Qanlı yanvar faciəsinin törədilməsi.

### 39. Azərbaycan mədəniyyəti (XX əsrin ikinci yarısı)

Ümumtəhsil məktəbləri. Mədəni-maarif məsələləri. Ali təhsilli mütəxəssislərin hazırlığı. Mədəni maarif və mətbuat. Azərbaycanda Elmi-tədqiqat işlərinin vəziyyəti. Teatr. Azərbaycan kinosunun inkişafı. Rəssamlıq. Heykəltaraşlıq. Təsviri incəsənət. Memarlıq. Mədəni və mənəvi həyat. Elm sahəsinin inkişaf etdirilməsi. Elmlər akademiyasının fəaliyyəti. Elmi-texniki tərəqqinin inkişaf etdirilməsi. Azərbaycanın beynəlxalq mədəni əməkdaşlığının forma və istiqamətləri.

### 40. Cənubi Azərbaycan İran inqilabı dövründə (1978-1979-cu illər)

Cənubi Azərbaycanda milli-azadlıq hərakatının yatırılmasından sonra ictimai-siyasi vəziyyət. Iranda 1949-1953-cü il hərəkatında Cənubi Azərbaycanın iştirakı. Cənubi Azərbaycanda 50-illərin sonu-60- cı illərin əvvəllərində kəndli çıxışları. Iranda "Ağ inqilab" adı altında keçirilmiş islahatların Cənubi Azərbaycana təsiri. Cənubi Azərbaycanda sənayenin vəziyyəti. 70-ci illərin ortalarında Cənubi Azərbaycanda sosial və siyasi gərginliyin artması. Şah rejiminin Cənubi Azərbaycanda həyata keçirdiyi milli siyasəti. Azərbaycan-türk dilinə münasibət. 1977-ci ilin sonlarında Cənubi Azərbaycanda ictimai-siyasi vəziyyətin kəskinləşməsi. Qum hadisələrinin Cənubi Azərbaycanda gedən siyasi proseslərə təsiri. 18 fevral 1978-ci il Təbriz üsyanı. "Xalq mücahid"ləri və "Xalq fədai"ləri. Təbriz üsyanının əhəmiyyəti. Cənubi Azərbaycan İran inqilabının ikinci mərhələsində.

### 41. Sovet imperiyasının süqutu və Azərbaycanda milli-azadlıq hərakatı

Sovet imperiyasının süqutunun daxili və xarici səbəbləri. Sov.İKP MK-nın aprel plenumu. Azərbaycanda demokratik ideyaların yayılması. Qarabağ probleminin yaradılması "Azərbaycan SSR-in DQMV-də xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərarı. Dağlıq Qarabağda Azərbaycan SSR-in Təşkilat Komitəsinin yaradılması. Azərbaycanda xalq hərəkatının başlanması. Azərbaycan Xalq Cəbhəsi və digər siyasi təşkilatların yaranması. Regionlarda xalq hərəkatının genişlənməsi. Sovet-İran sərhədlərinin dağıdılması. SSRİ-Türkiyə sərhədlərində hadisələrin gedişi. 20 yanvar faciəsi. Ayaz Mütəllibovun Azərbaycan KP MK-nın birinci katibi təyin edilməsi. Heydər Əliyevin Naxçıvanda siyasi fəaliyyəti.

### 42. Azərbaycan müstəqillik dövründə

Azərbaycanda gedən ictimai-siyasi proseslər. AXC-nin siyasi fəaliyyəti. "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"-nın qəbul edilməsi. Müstəqil dövlət quruculuğuna maneələr. Azərbaycan Milli özünümüdafiə qüvvələrinin yaradılması. Dağlıq Qarabağda Azərbaycalıların yaşadıqları yaşayış məntəqələrinin erməni silahlı qüvvələri tərəfindən işğalı. Qarabağ problemi. Kəlbəcərin işğalı. Siyasi böhranın baş verməsi.

Azərbaycanda siyasi vəziyyətin kəskinləşməsi. 1993-cü ilin iyun qiyamı. Heydər Əliyevin Bakıya dəvət edilməsi və Ali Sovetin sədri seçilməsi. Erməni silahlı qüvvələri tərəfindən Azərbaycanın bir sıra rayonlarının işğal edilməsi. BMT Təhlükəsizlik Şurasının qətnamələri. Ordu quruculuğu. Azərbaycan ordusunun Füzuli istiqamətində əkshücumu. Azərbaycanla Ermənistan arasında atəşkəsin elan edilməsi.

Azərbaycanın xarici siyasəti. ATƏT-in Minsk qurupunun fəliyyəti. Dağlıq Qarabağ probleminə dair Azərbaycan və Ermənistan Prezidentlərinin görüşləri. Demokratik hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu. Azərbaycan Respublikasının Konstitusiyasının qəbulu. Sosialist istehsal üsulunun dağılması. Xarici kapitalın cəlb edilməsi. "Əsrin müqaviləsi"-nin imzalanması. "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət

mülkiyyətinin özəlləşdirilməsi Dövlət Proqramı" və aqrar islahatların həyata keçirilməsi. Əhalinin sosial müdafiəsinə dair tədbirlər. Dövlət büdcəsindən sosial təyinatlı xərclərin artırılması.

İlham Əliyevin Azərbaycan Respublikasının prezidenti seçilməsi. Azərbaycan Beynəlxalq təşkilatlarla əlaqələrinin gücləndirilməsi. Dağlıq Qarabağ problemi. Aprel döyüşləri. Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçrilməsi. Azərbaycan Respublikasının sənayenin inkişafına dair 2015-2020-ci illər üçün dövlət proqramı. Azərbaycan iqtisadiyyatının inkşaf etdiriliməsi üçün həyata keçrilən tədbirlər. Azərbaycanın xarici siyasəti. Azərbaycan Respublikasının neft strategiyasının davam etdirilməsi. Azərbaycan Respublikasının sosial siyasəti.

## 43. Azərbaycan mədəniyyəti (Müstəqillik dövrü)

Maarif müəssisələrinin xeyli hissəsinin ermənilərin işğalında qalması. Yeni təhsil sisteminə keçid. Ali təhsil sisteminin inkişaf etdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunu. "Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərarın qəbul edilməsi. Azərbaycanda kütləvi informasiya vasitələri şəbəkəsinin genişləndirilməsi tədbirləri.

Azərbaycan elmi sahəsində mövcud olan problemlər. "Elmin strateji inkişafı və Azərbaycan Milli Elmlər Akademiyasında islahatların konsepsiyası"nın hazırlanması. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Elmlər Akademiyasının statusu haqqında" fərmanı. Azərbaycan alimlərinin naliyyətləri. Teatr, musiqi və kinonun inkişaf etdirilməsi.

Milli ideologiyanın formalaşdırılması. Vətənpərvərlik, milli dəyərlərin inkişaf etdirilməsi. "Dövlət Dil Komissiyası" nın yaradılması. "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunun qəbul edilməsi."Dini etiqad azadlığı haqqında" qanun. "Azərbaycan Respublikasının bayramları haqqında" qanun. Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən milli-mədəni cəmiyyətlər. Dünya Azərbaycanlılarının qurultayları. "Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin " fəaliyyəti. "Türkdilli Ölkələrin Mədəniyyət Nazirləri Daimi Konseyni". Azərbaycanın Dünya ölkələri ilə mədəni əlaqələri. Prezident İlham Əliyevin hakimiyyəti dövründə mədəniyyətin inkişaf etdirilməsi.

## Əsas ədəbiyyat


1. Azərbaycan tarixi. Dərslik. S.Əliyarlı.Bakı: Azərnəşr,1996,872 s.
2. Azərbaycan tarixi.Dərslik. Z.Bünyadov. Bakı: Azərnəşr,1994, 680 s.
3. Azərbaycantarixi.Dərslik.Bakı:"Bakı Universiteti"nəş.,2014,380 s.
4. Ağasiyev İ., Səlimov Ş. Azərbaycan tarixi. Dərslik. Bakı: AƏSMA, nəş., 2017, 579 s.
5. Qasımov Ş. Azərbaycan tarixi. Bakı: Qanun nəşr, 2014, 597 s.
6. Məmmədov İ. Azərbaycan tarixi. Dərslik. Bakı: Adiloğlu, 2005, 486 s.
7. Məmmədov İ., Məmmədov Ç. Azərbaycan tarixi. Dərslik. Bakı: 2010, 336 s.


## Əlavə ədəbiyyat


1. Azərbaycan tarixi. 7 cilddə, Ic. (Ən qədimdən - b.e. III əsri). Bakı: Elm, 2007, 520 s.
2. Azərbaycan tarixi. 7 cilddə, II c. (III-XIII əsrin I rübü). Bakı: Elm, 2007, 608 s.
3. Azərbaycan tarixi. 7 cilddə, III c. (XIII-XVIII əsrlər). Bakı: Elm, 2007, 592 səh.

4. Azərbaycan tarixi. 7 cilddə, İV c. (XIX əsr). Bakı: Elm, 2007, 504 s.+48 s.
5. Azərbaycan tarixi. 7 cilddə, V c. (1900-1920-ci illər) Bakı: Elm, 2008, 696 s.
6. Azərbaycan tarixi. 7 cilddə, VI c.(aprel 1920-iyun 1941). Bakı: Elm, 2008, 568 s.
7. Azərbaycan tarixi. 7 cilddə, VII c. (1941-2002-ci illər). Bakı: Elm, 2008, 608 s.
8. Bakıxanov A. Gülüstani-İrəm. Bakı: 1951, 302 s.
9. Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917). Bakı: Elm, 1985, 316 s.
10. Həsənli C. Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939). Bakı: Adiloğlu, 2012, 656 s.
11. Əliyev H. Müstəqilliyimiz əbədidir. I cild. Bakı: Azərnəşr, 1997, 612 s.
12. Əliyev H. Müstəqilliyimiz əbədidir. II cild. Bakı: Azərnəşr, 1997, 604 s.
13. Əliyev H. Müstəqilliyimiz əbədidir. III cild. Bakı: Azərnəşr, 1997, 488 s.
14. Əliyev H. Müstəqilliyimiz əbədidir. IV cild. Bakı: Azərnəşr, 1997, 528 s.
15. Həsənov Ə. Azərbaycanın xarici siyasəti. Avropa dövlətləri və ABŞ. (1991-1996). Bakı: 1998, 330 s.
16. İbişov F. Azərbaycan kəndində sosial-iqtisadi proseslər (1920-1930-cu illər). Bakı: 1996, 168 s.
17. İsmayılov İ,Z, Azərbaycanlıların II Dünya müharibəsində iştirakı. Bakı: 2000, 192 s.
18. Köçərli X. Azərbaycan 1920-1940-cı illərdə. Bakı: ADPU-nun nəşri, 2003, 230 s.
19. Köçərli T. Qarabağ: yalan və həqiqətlər. Bakı: 1998, 242 səh.
20. Mustafayev C.M. Azərbaycan xanlıqlar dövründə: Dərs vəsaiti. Bakı: MSA, 2012, 256 s.
21. Mirzə Camal Qarabaği. Qarabağ tarixi. Bakı: 1959, 138 s.
22. Orucov Q. Azərbaycan Qafqaz döyüşlərində. Bakı: 1984, 160 s.
23. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Bakı: 1991, 112 s.
24. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: 1990, 112 s.
25. Sultanov O.B. XX əsrin 80-ci illərinin sonu-90-cı illərinin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı: 1995 232 s.

**Sumqayıt Dövlət Universitetinin Tarix və coğrafiya fakültəsinin Elmi Şurasının 08.07.2019-cu il tarixli iclasnın (protokol №10) qərarı ilə təsdiq üçün tövsiyə olunmuşdur.**